# ÖLKƏDƏ KIÇIK BIZNESIN PERSPEKTIV INKIŞAF ISTIQAMƏTLƏRI

*Səfərova Təranə Allahverdi qızı*
*Mingəçevir Dövlət Universiteti*

Ölkədə sahibkarlıq fəaliyyətini genişləndirmək və rəqabət qabiliyyətli məhsul istehsal etmək üçün texnologiyaların, biznes inkubatorlarının , sənaye şəhərciklərinin yaradılması mühüm əhəmiyyətə malikdir.Bazar münasibətləri sistemində sahibkarlıq texnologiyaları ali təhsilin, elmin, sənayenin, sahibkarlığın yeni forma və inteqrasiya infrastrukturlarıdır.Ölkədə biznesin səmərəli inkişafına kömək məqsədilə texnoparklar, biznes inqubatorlar və sənaye məhəllələrinin yaradılmasına sahibkarlar ciddi səy göstərməlidirlər.

Məlumdur ki, hər bir ölkənin qüdrəti onun beynəlxalq aləmdə mövqeyi və ilk öncə iqtisadiyyatın vəziyyəti ilə müəyyən olunur. Dünya iqtisadiyyatında baş verən bir çox hadisə və proseslər iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasını, onun strukturunun təkmilləşdirilməsini və innovasiya fəaliyyətinin genişləndirilməsini zəruri edir. İnnovasiyanın yayılması iqtisadi inkişafın göstəricisidir. Hazırki innovasiya modellərinin əsas elementlərinə keyfiyyət və digər bu kimi qeyri qiymət amillərinə diqqətin yönəldilməsi, korporativ çeviklik, əsas tədarükçülərlə strateji inteqrasiya və s. aid edilir. İnnovasiya iqtisadiyyatının formalaşmasında əsas rol oynayan amillərdən biri də elmi potensialı əlaqələndirməyə imkan verən innovasiya infrastrukturunun mövcudluğudur. İnnovasiya infrastrukturunun inkişafı innovasiya fəaliyyətinin dəstəklənməsi və inkişafına yönələn konsaltinq, informasiya və s. növ xidmətlər göstərən təşkilati şəbəkənin yaradılmasını nəzərdə tutur. İnnovasiya tipli, rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasında sahibkarlığın, xüsusən də kiçik biznesin mühüm rolu vardır. Sahibkarlıq müəssisə mülkiyyətçisinin innovasiyalı davranışına, ideyaların axtarılıb tapılmasına və istifadəsinə, onları layihələrində həyata keçirmək bacarığına əsaslanan yeni təsərrüfatçılıq tipidir. Sahibkarlıq ilk əvvəl vətəndaşların və bütövlükdə cəmiyyətin tələbatlarının və iqtisadi artımın təmin edilməsi məqsədilə bütün istehsal amillərindən istifadə edilməsi ilə bağlıdır. Ölkənin müəyyənləşdirilmiş strateji inkişaf hədəflərinə nail olması, iqtisadiyyatın diversifikasiyası, onun rəqabətqabliyyətliliyinin yüksəldilməsi və innovasiya xarakterinin gücləndirilməsi daha çox sahibkarlıq sektorunun inkişafından asılıdır. Sahibkarlığın, xüsusilə kiçik biznesin inkişafı prioritet vəzifə olmaqla çoxlu sayda amillərin təsiri altında baş verir. Ona görə də müasir mərhələdə sahibkarlıq fəallığının və fikirlərinin, makroiqtisadi amillərin qarşılıqlı əlaqədə olan çoxamilli modelinin işlənib hazırlanması, kiçik sahibkarlığa kompleks dövlət dəstəyinin göstərilməsi, onun prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və onun nəticələrinin, sahibkarlıq potensialının qiymətləndirilməsi, biznes fəallığına təsir edən amillərin öyrənilməsi, biznesin yeni idarəetmə formalarının inkişaf səviyyəsinin, kçik sahibkarlığın inkişafında klaster şəbəklərinin rolunun təhlili və s. kimi məsələlər öz aktuallığı ilə diqqəti cəlb edir. Bazarda fəaliyyət göstərən yeni müəssisənin əsas cəhəti yalnız ətraf mühitlə deyil, həm də birbirinə uyğunlaşma qabiliyyətinin olmasıdır. Sahibkarın

yalnız yeni biznesin imkanlarını yaxşı başa düşən deyil, həm də bu imkanları təcrübədə reallaşdıra bilən vahid düşüncəli yaxşı heyəti olmalıdır. Belə bir fikir formalaşıb ki, sahibkarlıq və bazar kiçik müəssisələr üçün deyil, əsas iri dövriyyəli müəssisələr üçün əlverişlidir. Əsas arqument budur ki, kiçik müəssisələrin güclü təchiz edilmiş iri şirkətlərlə rəqabət apara bilmə imkanının olmamasıdır. Doğrudur kiçik və orta biznes bir sıra səbəblərdən iri müəssisələrlə uğurla rəqabət apara bilər. Adətən, hesab edilir ki, texnoloji innovasiya iri biznes sferasıdır, lakin tədqiqatlar göstərir ki, son dövrlərdə köklü texnoloji innovasiyanın təxminən 95 -i kiçik biznes sferasının payına düşür. Ölkənin sosial-iqtisadi inkişafının hazırkı mərhələsində əsas istiqamətlərdən biri kiçik sahibkarlığın inkişafıdır. Kiçik biznes müasir sahibkarlığın təməlində durur. Bunu onun davranışının innovasiya tipinin və sadə idarəetmə quruluşu nəticəsində bazarın tələblərinə operativ reaksiya vermək qabiliyyətinin səciyyəvi olması müəyyən edir. Xarici ölkələrin ÜDM-in quruluşu üzrə statistik məlumatlar bazar iqtisadiyyatında kiçik biznesin iqtisadi artım sürətini və ÜDM-in keyfiyyətini müəyyən edən aparıcı sektor kimi çıxış etdiyini göstərir. Müxtəlif ölkələrdə kiçik biznesin inkişafının özünəxas cəhətləri vardır. Bu tarixi və mədəni ənənələrdən, iqtisadiyyatın inkişaf səviyyəsindən, habelə kiçik biznes sektorunun dəstəklənməsinin qanunverici və institusional şərtlərindən asılıdır. Bəllidir ki, kiçik biznes bazar iqtisadiyyatının əsas elementidir və spesifik inkişaf qanunauyğunluğu vardır. Onun rolu iqtisadi, innovasiya, sosial və siyasi funksiyalarla müəyyən edilir. Kiçik biznes sektoru yeni məhsul növlərini daha çevik mənimsəyir və iri biznes üçün cəlbedici olmayan sahələrdə inkişaf edir. Bu sektorun fərqləndirici cəhəti investisiyanın sürətli mənimsənilməsi, kapitalın yüksək dövriyyəliliyi və innovasiya fəaliyyətidir. Kiçik bisnesin bu cəhətləri kiçik sahibkarlığın inkişafının stimullaşdırılmasının müvafiq mexanizmlərini nəzərdə tutan bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrin təcrübəsində təzahür edir. Hər bir dövlətin ümumi iqtisadi inkişafında kiçik biznes sektoru xüsusi yer tutur. İqtisadi inkişafın müasir mərhələsində kiçik biznes sektorunun potensialının reallaşdırılması üçün imkanların axtarıb tapılması ölkə üçün vacib rola malik məsələlərdən biridir. Kiçik biznesin inkişafına iri müəssisələrlə qarşılıqlı əlaqələrin təşkili və kiçik biznes sektorunun sahəvi diversifikasiyası böyük təsir göstərə bilər. Məhz bu amil bazarı konyuktiv dəyişikliyinə cəld reaksiya verən, investisiyanın sürətlə mənimsənilməsinə, innovasiya fəaliyyətinə qadir olan kiçik müəssisələrin yeni keyfiyyət xüsuiyyətlərinin ortaya çıxmasına imkan verəcəkdir. Kiçik sahibkarlığın real sosial-iqtisadi əhəmiyyətinin qiymətləndirilməsi və gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi onun güclü və zəif cəhətlərinin aşkara çıxarılmasını zəruri edir. Kiçik biznesin bir sıra üstün cəhətlərinin olmasına baxmayaraq, onun üçün də çoxsaylı risklər xarakterikdir. Kiçik biznesin güclü cəhətlərinə aşağıdakıları aid etmək olar:

- bazara nüfuz etmənin asanlığı;
- bazarın dəyişən konyukturasına tez reaksiya verilməsi;
- fəaliyyət istiqamətinin tez dəyişmə qabiliyyəti.

Kiçik biznesin zəif cəhətlərinə isə bazar məhdudluğunu, istehsalın inkişafı üçün resursların və mütəxəssislərin cəlb edilməsinin məhdudluğunu, müxtəlif növ iqtisadi böhranlara qarşı zəiflik və s. aid etmək olar. İnzibati maneələr, dövlət

tərəfindən daha çox tənzimlənməyə məruz qalması, yüksək rəqabət kimi amillər kiçik biznesin mövcudluğuna təhlükə ola bilər. İqtisadiyyatın bu sektorunun cəmiyyətin sosial-iqtisadi, problemlərinin həll olunmasında, innovasiya fəaliyyətinin genişləndirilməsində və rəqabətqabiliyyətliliyinin yüksəldilməsində real imkanlarının olması və inkişaf perspektivliliyi aşağıdakılarla müəyyən olunur:

- kiçik biznes iqtisadiyyatda yeni iş yerlərinin əsas "yaradıcısıdır". Kiçik sahibkarlıq işsizlik və yoxsulluq problemlərinin həll edilməsində mühüm rol oynayır;
- kiçik biznes sektoru vasitəsilə dövlət iqtisadiyyatda məhdud yerləri, o cümlədən istehlak mal və xidmətlərinin yerli bazarını genişləndirə bilər. Kiçik sahibkarlıq öz fəaliyyəti çərçivəsində ayrı-ayrı bazar və qeyri-bazar subyektləri ilə səmərəli əməkdaşlıq imkanlarına malikdir;
- iri istehsala nisbətən kiçik biznes daha səmərəlidir və buna görə də ona dəstək durulması çox vacibdir. Kiçik biznes sahəsi iri müəssisələrlə əməkdaşlıq edərək bir sıra sahələrdə səmərəli fəaliyyət göstərir və demək, kiçik biznes həm iqtisadi, həm də sosial səmərəlilik cəhətdən daha əhəmiyyətlidir; Kiçik biznesin inkişafının nəzəri qiymətləndirilməsi və xüsusiyyətləri
- kiçik biznesin inkişafı üçün dövlətin güclü dəstəyinin olması zəruridir. Bu istiqamətdə dövlətin əsas rolu uyğun normativ hüquqi bazanın və kiçik sahibkarlığın inkişafına xidmət edən təsisatlar sisteminin yaradılması yolu ilə əlverişli biznes mühitinin formalaşdırılmasıdır.

Beləliklə, kiçik biznes iqtisadi fəaliyyətin artırılmasında, iqtisadiyyatın innovasiyayönümlülüyünün gücləndirilməsində, sağlam rəqabətin formalaşdırılmasında, iri biznesin müxtəlif xarakterli ehtiyaclarının təmin edilməsində və s. mühüm rol oynayır. Bu baxımdan kiçik biznesin kompleks inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi olduqca zəruridir.

Ədəbiyyat:

1. Gənciyev G.Ə., Kərimov C.H. Sahibkarlığın əsasları. Bakı, 2008.
2. Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Dərslik. Bakı: ADİU, 2011.
3. Manafov Q.N. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri. Bakı, 2012.

## İNNOVASIYA PROQRAMI ƏSASINDA SAHIBKARLIĞIN INKIŞAFI

*Xəlilov Xəlil Ramiz oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitin yaradılması məqsədilə son 15 ildə həyata keçirilən islahatlar nəticəsində respublikamız keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, qeyri-neft sektoru və regionların sosial-iqtisadi inkişafında yeni uğurlar əldə edilmişdir. Sahibkarlığın innovasiya infrastrukturunun yaradılması sahəsində respublikada ilk sənaye şəhərciyinin, məhəllələrinin,